SƏNƏTİN SEHRİ

# Həsənağa Turabov və Azərbaycan teatrı

*Azərbaycan milli opera sənətinin banisi, görkəmli bəstəkarımız Üzeyir bəy Hacıbəyli aktyor sənətinin sehrindən bəhs edərkən məqalələrinin birində yazmışdır: "Artistdə iki fəzilətdən biri olmalıdır: ya xudadilik, ya da ustadlıq. Xudadilik allah vergisidir.. Bu hər kəsdə olmaz və hər kəsdən tələb etmək də caiz deyildir. Amma ustadlıq belə şeydir ki, səy, guşiş və bir də qabiliyyət sayəsində hasil olur. Bunu da artist olmaq istəyəndən tələb etməyə tamaşaçıların haqqı vardır". (Azərbaycan teatrının salnaməsi. Bakı, 1975, s.6).*

Artistin tamaşaçılar qarşısında öz vəzifəsini layiqincə yerinə yetirməsi, onların rəğbətini qazanmağı bacarması, teatr sənətində ən vacib şərtlərdən biridir ki, görkəmli ədəbiyyatşünas alim, tərcüməçi və tənqidçi Mikayıl Rəfili də bu cəhəti öz məqalələrində xüsusi bir dəyərlə qiymətləndirmişdir. M. Rəfilinin fikrincə hər bir tamaşa hazırlanarkən onun "ictimai kəsəri" əsas götürülməlidir və bu xüsusiyyət əsas etibarı ilə aktyor ifası ilə bağlı olmalıdır. O, tamaşanın qələbəsini aktyor ifası ilə, onun ifa etdiyi obrazın xarakterini düzgün dərk edib, o haləti təbii və səmimi yaşaması ilə əlaqələndirmişdir. Mikayıl Rəfili tamaşalara həsr etdiyi məqaləsində aktyor sənətkarlığını teatrın yaradıcılıq keyfiyyəti adlandırır və öz fikrini əsaslandırmaq üçün "Namus" pyesinin tamaşasında görkəmli sənətkar Ələsgər Ələkbərovun səhnədəki şücaiətindən söz açıb Barxudar obrazının sehrindən danışır. M. Rəfili yazır ki, "Ə. Ələkbərov ifa etdiyi bu obrazın idealına fanatikcəsinə inanır və onu səciyyələndirirdi". (bax: "Qobustan" incəsənət toplusu. Bakı, 1985, №1, s. 4-6).

Milli səhnəmizin tarixində Üzeyir bəyin dediyi kimi "xudadilik" vergisi ilə tamaşaçıları öz sənətinin sehrinə salan korifey sənətkarlardan söhbət açarkən biz Hüseyn Ərəblinskini, Abbas Mirzə Şərifzadəni, Ülvi Rəcəbi, Mərziyə Davudovanı, Ələsgər Ələkbərovu, Hökümə Qurbanovanı və daha kimləri gözlərimiz önünə gətiririk. Bu sıraya daxil olan aktyorlardan biri haqqında məqaləmizdə söhbət açmaq, onun tamaşaçıları öz sənətinin sehrinə sala bilməsində məhz ilahi bir qüdrətin olmasından bəhs etmək istərdik.

Səsinin, nəfəsinin, üzündəki ifadənin, baxışlarındakı itilik, yaxud da buz kimi soyuqluğun təsirindən tamaşaçı ya üşüyər, ya istilənər, ya qəhərlənər, ya da ki, dərin düşüncələrə qərq olurdu. Milli Akademik Teatrı onsuz təsəvvür etmək bizim üçün çox ağırdır. İndi biz Həsənağa Turabov haqqında keçmiş zamanda danışırıq. . .

Onun arzusu milli səhnəmizdə Ağa Məhəmməd şah Qacar obrazını ifa etmək idi. . . Acı təəssüflər olsun ki, bu tarixi obrazı oynamaq arzusu onun özüylə getdi. . .

Çox maraqlıdır, görəsən bu obraz ilə Həsən Turabov xalqına nə demək istəyirdi?. . Onun ifa etdiyi hər bir obraz öz ifa xüsusiyyəti, fikri və fəlsəfəsi baxımından həmişə ictimai xarakter daşıyırdı. Aktyor öz sənətində milli mentalitetimizin, dilimizin, mənəviyyatımızın, əxlaq və borc anlamının keşiyində dayandığı üçün həmişə sənətsevərlər tərəfindən sevilmişdir. Onun ifasında (C. Məmmədquluzadə "Ölülər")- Kefli İsgəndər, (S. Vurğun "Vaqif") - Vaqif, İ. Əfəndiyev "Şeyx Xiyabani") - Xiyabani, (İ. Əfəndiyev "Bizim qəribə taleyimiz") - Kamran, (Şekspir "Hamlet") - Hamlet, (İ. Əfəndiyev "Mahnı dağlarda qaldı") - Nicat obrazlarını görəndən sonra fikirləşirsən ki, bu rollar yalnız onun boyuna biçilib. Başqa aktyorlar belə xarakteri yarada bilməz!

H. Turabov ifa etdiyi obrazlar xarakter etibarı ilə müxtəlif olsalar da, mahiyyət etibarı ilə onun ruhundan qidalandığı üçün eynidir. Onlar xeyirxah, doğruçu, tərbiyəçi, bəşəriyyətə xəyanətkar mövqedə dayananlara qarşı amansızdırlar. O cümlədən H. Turabovun ifa etdiyi Xəyyam obrazı. . .

Hüseyn Cavid 1935-ci ildə "Xəyyam" dramını yazarkən əlbəttə ki, bu obrazda Abbas Mirzəni görürdü. Lakin məlum represiya hadisələri əsərin itkin düşməsinə, A. M. Şərifzadənin də represiya qurbanı olması və özünün aqibəti bu arzuları yarımçıq qoydu. 1970-ci ildə Cavid fəlsəfi fikrinin vurğunu olan professor Mehdi Məmmədov bu əsərə ilk dəfə quruluş verərkən A. M. Şərifzadənin yerində özünü və Həsənağanı təsəvvür etdi. Ömər Xəyyamın obrazını yaratmaq aktyordan son dərəcə böyük istedad, dərin fəlsəfi duyum və xudadi bir sehr tələb edirdi.

Şərqin böyük filosofu Ömər Xəyyam bütün ömrü boyu xeyirxahlığı alqışlamış, insanları "arif" olub, bu dünyanın qurduğu nəfs tələsinə düşməməyə çağırmışdı. Xəyyamın fəlsəfəsini daha təbii və təsirli

etmək üçün H. Cavid əsərdə bir neə yerdə onun öz rübailərindən istifadə etmişdir. Məsələn, Xəyyamın fəlsəfəsinə görə yerlə göy arasında münasibətləri iki güclü qüvvə idarə edir. Onlardan biri Nur (göydəki Ülkər), digəri yerdəki qara qüvvədir (öküz - iblis mənasındadır). Bizim sadə anlamımıza görə cənnət və cəhənnəm arasında qalan insanın mövqeyini Xəyyamın öz irsindən götürülmüş bu seçmədə izləyək:

**"Ülkər ismiylə, diyor, göydə yaşarmış bir öküz,**
**Bu bir əfsanə, yer altında da varmış bir öküz.**
**Arif olsaq bu öküzlər arasında bişək**
**Görürüz bir yığın ipsiz və yorulmaz eşşək"**

(bax: Hüseyn Cavid. Dram əsərləri. Bakı, Azərnəşr, 1975, s. 450).

Həmin seçmədə Ömər Xəyyamın "Arif olsaq" fikrini əsas ideya kimi qabardan və Xəyyamı bütün ömrü boyu arif bir insan kimi tamaşaçılarına təqdim edən Hüseyn Cavid on əsr keçdikdən sonra Xəyyam xislətli bir şairin, dramaturqun, yəni özünün bədii obrazını yaratmışdı. Xəyyamın və Cavidin "arif" təbiətini ümumiləşdirən bu obrazı yetərincə ifa etmək, tamaşaçıları yerlərin deyil, göylərin çağırışına qoşulan, ilahi eşqin və təbiətin tam mənada sahibləri olan bu filosofların amallarının səhnə təcəssümü ilə qarşı-qarşı qoymaq üçün aktyordan bacarıqdan başqa "xudadilik" də tələb olunurdu.

H. Turabovun yaratdığı Xəyyam obrazı Mehdi Məmmədovun ifa etdiyi Xəyyamdan seçilirdi. Bu fərqi diqqətə çatdıran cəhətlərdən biri Həsən Turabovun danışığındakı səs tonlarının vəziyyət və hadisələrə rəğmən tez-tez dəyişməsi idi ki, sanki aktyor səsinin sehri ilə Xəyyamın ictimai və fəlsəfi xüsusiyyətlərinə baxışını ifadə edirdi. H. Turabovun Alp Arslanla söhbəti daha böyük cürət və qətiyyətə malik olan Xəyyamın həqiqətən də göylər adamı olduğunu diqqətə çatdırırdı. Həsən Turabov - Xəyyam Göylü Yusifə qarşı qəzəblənən və onun edam olunması haqqında qəti fərman verən şaha cürət edərək belə bir məsləhət verməyi özünə insanlıq borcu bilir:

**"Minlərcə şəhər, ya qala almaqdan, əmin ol**
**Bir sadə çoban könlünü almaq daha məqbul!"**

Xəyyam - H. Turabov bu misraları elə bir səs ahəngində söyləyirdi ki, bu kəlamın qarşısında sərt xasiyyətli Alp Arslan yumşalırdı. O, Yusifi əfv etmək istəsə də, Yusif bu məramı qəbul etmir. Çünki o da "ariflərdən" biridir və bu dünyanın boyunduruğunu daşımaq istəmir.

Xəyyam obrazının bir maraqlı tərəfi ondadır ki, o insanları bu dünyada ədalətli olmağa, haqq və nahaqqı seçməyi bacarmağa dəvət edir. H. Turabov - Xəyyam Alp Arslanın bəzən insafı buraxıb tələsik qərar qəbul etməsini ona irad tutaraq:

"Bir böyük quş qonaraq bürcünə gördüm Tusun
Süzərək kəlləsini pəncədə Keykavusun;
Sanki söylərdi: hanı dünkü o həşmət, o cəlal?
Hanı keçmişdəki avazeyi-təblü-kusun?" - deməsi onun həddindən ziyadə qorxmaz və mübariz ruhunun ifadəsi kimi səslənirdi.

Xəyyamın Keykavusu nümunə göstərərək Alp Arslanı ədalətə, mərhəmətə dəvət etməsi aktyorun sanki öz qəlbinin dərinliklərindən axıb gələn bir çağırış və nidalar idi. O, bu obrazın xarakterini o qədər özününkü etmişdi ki, K. S. Stanislavskinin təbirincə desək "özü rolunda, rolu özündə" idi. Ona görə ki, Həsən Turabov Xəyyamın obrazı ilə çox məhrəm olmuş, onun ağrılarını öz qəlbi ilə hiss etmişdi.

Şekspir aktyoru dövrünün güzgüsü adlandırmışdır. Bu ada layiq olan hər bir aktyor ifa edəcəyi obrazın hər tərəfini aydın görməyi bacarmalıdır. Bizim qəhrəmanımız da Xəyyamın bütün keyfiyyətlərini, fikir və mənəvi xislətini həssaslıqla duyduğu üçün onun ruhunun həyatını belə təbiiliklə yarada bilirdi. O, Müfti kimilərin iç dünyasını cəsarətlə açarkən qətiyyətli və son dərəcə ikrah hissi ilə onun kimliyini üzünə vuraraq:

**"Həzrəti Müfti, sizə nisbətlə biz**
**həm ayğız, həm deyiliz nəşəsiz,**
**Biz içəriz badə, siz insan qanı,**
**Hankımız, anlat, daha çox vəhşiyiz?"**

(H. Cavid. Dram əsərləri. Bakı, Azərnəşr, 1975, s. 484 - 485) - Xəyyam - H. Turabovun üzündə bir ağrılı təbəssüm, acı kinayə və ikrah hissi görünürdü. Ulu Xəyyamın döyüşkən ruhunu, hazırcavablığını, kəsərli sözləri ilə nakəslərdən intiqam almağı özünə borc bilən filosofun həyatını yaşamaq aktyor üçün çətin deyildi. Ona görə ki, onların iç dünyaları, bəşər övladına münasibətləri, pisliyə, namərdliyə, nadanlığa qarşı xislətləri bir-birinə çox bənzər idi.

Həyatının ən ağır anlarında, yeganə təsəllisi, qəm sirdaşı, könül aşinası Sevdasını itirərkən Ulu Xəyyam - H. Turabov üzünü ucalıqlara çevirib tənə ilə deyirdi:

**"Söylə, kimdən diləyim mən imdad?..**
**Həm təbiət, bəşəriyyət cəllad!..**

Bu ittiham hökmünü bütün dövrlərdə filosoflar önə çəkməklə bəşəriyyətin pozulmaz qanunlarına münasibət bildiriblər. Onlar bu qarışıq dünyanın gərdişində çaşıb azmamaqdan ötəri mənəviyyata sığınıb, onu özlərinə sipər etmişlər. Xəyyamlar, Cavidlər və onların ömür amallarını yaşadan Həsənağalar ölməzliyə qovuşurlar. Onlar bizi heç vaxt tərk edə bilmirlər. Ona görə ki, bizə mənəviyyat yolunu göstərmək üçün onlara "xudadilik" bəxş edilmişdir.

***Yasəmən Hacıyeva***